RM Audit MMC

Azərbaycan Respublikası, AZ1010
Bakı şəhəri, A.Cəlilov küç. 26/64
VÖEN : 14 01735361
Audit Lisenziyası AT № 086

26/64, A.Calilov Street
AZ1234, Baku, Azerbaijan
Tax ID : 1401735361
Audit License AT №: 086

Phone : (+99450) 2043368
Phone/fax : (+99455) 3241022
e-mail rasatmiriyev@mail.ru

# MÜSTƏQİL AUDİTORUN RƏYİ

**"AZƏRBAYCAN ELM FONDU"**
**PUBLİK HÜQUQİ ŞƏXSİN**
**İcraçı direktoru Xanım M.N.İmanovaya**

**Rəy**

Mən, **"AZƏRBAYCAN ELM FONDU" PUBLİK HÜQUQİ ŞƏXSİn** (bundan sonra Fond adlandırılacaq) 01 yanvar 2023-cü il tarixdən 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərərlər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə həsabatlarna edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apamışam.

**Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Fondun 01 yanvar 2023-cü il tarixdən 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.**

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Fondun idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

"RM Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Miriyev Rasət Abasət oğlu: 10 sentyabr 2024-cü il

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Fondu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativi olmadığı halda, rəhbərlik Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəalliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin İdarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər, Fondun maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyə tdaşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim təqdim edilmiş maliyyə hesabatlarında, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-a uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"RM Audit " Məhdud Məsuliyyətli Cəmiyyətinin Direktoru** **R.A.Miriyev**

**Azərbaycan Respublikası, Bakı şəhəri,**
**Afiyəddin Cəlilov küçəsi, ev26, mənzil 64.**

**10 sentyabr 2024-cü il**

Azərbaycan Respublikası • Məhdud Məsuliyyətli Cəmiyyəti • RM AUDİT • Limited Liability Company • Azerbaijan Republic